# Sayılır

Sayılır Ulular verilib o rəy,
Gözəl vilayətdir bizim Dədəbəy.

Bəylərin dədəsi yaşayıb orda,
Dağlar qüruruna dağ olub həmrəy.

Gərək düşüncədən məhvəri olsun,
Bunu başa düşməz hər bir köstəbəy.

Azərəbaycan üçün o bir qartaldır,
Nə bir kəpənəkdir, nə də ki, böcəy.

Fəxr ilə yanaşıb tut ətəyindən,
Onun ədası var xalqlara örnəy.

Bineyi-qədimdən tayfalı oba,
Türk oğlu Türkdür o, əsası özəy.

Bəzi adamlar da nadanlıq edib,
Düzünü qoyuban gedməyə çəpəy.

Simayi-şəmsində hicrin dəmində,
Ona qibtə edir ay-üzlü mələy.

Onun vüqarını dərk etmək üçün,
Böylə bir cəlala görsədə bir səy.

Xəttinə düşəndə, cığırı bir tap,
Düzü düz olanı deməyib sən əy.

Əsli-nəcabəti varıdır onun,
Qəflətən çıxmayıb deyil göbələy.

Bilal, bu bir daha olunub sübut,
Bəydən kölə olmaz, kölədən də bəy.

***BİLAL,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***«Qızıl qələm» mükafatçısı,***
***şair-filosof***